# Artilleriya generalı Səməd bəy Mehmandarovun xatirəsi anılıb

**Respublika Gənclər Kitabxanasında hərb tariximizdə xüsusi yeri olan, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun qurucularından biri, müdafiə naziri, artilleriya generalı Səməd bəy Mehmandarovun 170 illik yubileyi münasibətilə "İlk ordu generalımız Səməd bəy Mehmandarov-170" adlı daycest hazırlanıb.**

Kitabxanadan bildirilib ki, material general Səməd bəy Mehmandarovun Vətən və millət qarşısındakı xidmətlərini oxuculara çatdırmaq, xüsusilə gənc nəsildə vətənpərvərlik hisslərini gücləndirmək məqsədilə ərsəyə gətirilib.

Təqdim olunan vəsaitdə Səməd bəy Mehmandarovun həyat və hərbi fəaliyyəti, artilleriya generalı kimi Azərbaycan Ordusuna və Cümhuriyyətin ordu quruculuğuna verdiyi töhfələrdən bəhs edilir. Daycestdə "General Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası




Prezidentinin imzaladığı sərəncamın tam mətni təqdim edilir. Kitabxana əməkdaşları tərəfindən hazırlanan materialda Silahlı Qüvvələrin Hərbi Akademiyasının dosenti Atamalı Şahbazovun "Brilyantla bəzədilmiş qızıl Georgi silahını alan ilk azərbaycanlı sərkərdə" adlı məqalənin tam mətni, Səməd bəy Mehmandarovun həyat və fəaliyyətinə dair 2013-2025-ci illərdə dövri mətbuatda dərc edilən məqalələrin biblioqrafik təsviri, qısa xülasəsi və elektron mənbəsi yer alır.

---

Azərbaycan.- 2025.- 18 oktyabr (№224).- S.15.